Ədalət 2019.- 6 sentyabr.- S.6.

# OXUYAN KUKLA

**Hekayə**

Artıq qaranlıq düşmüşdü.Qapının zəngi ara vermədən çalındı.Orta məktəbdə ingilis dilini tədris edən Sadiq müəllim divandan qalxıb qapını açdı.Qapının ağzında dayanmış başıörpəkli qadını görüb ilk baxışda tanımadı:

-Bağışlayın,kim lazımdır?

-Sadiqcan,mənəm,dostun Karen!

Sadiq bayaqdan zənn etdiyi qadın geyimli bu adamı indi tanıdı.Karen də ingilis dili müəllimi idi.Başqa bir məktəbin rus bölməsində dərs deyirdi.

Sadiq təəccübləndi:

-Bu nə geyimdir,ay Karen?..Bu gecə vaxtı xeyir ola!?

-Ara,sizinkilər qapıları bir-bir ablava eləyirlər...Aralarında bizim juliklərdən də var! Qorxduğumdan qadın paltarı geyib aradan çıxmışam.

-Yaxşı...Keç içəri,Karen!..

Karen içəri keçib əlindəki iri yol çantasını otağın bir küncünə qoydu.Sadiqin həyat yoldaşı Sünbül xanım süfrəyə çay gətirdi.Çay içiləndən sonra Sadiq dilləndi:

-Karen, aclığın olar,Sünbül xanım bir şey hazırlasın.

Karen mızıldana-mızıldana razılığını bildirib sözə başladı:

-Ara,bir həftədən çoxdur arvad-uşağı aradan çıxarmışam.İndi Yerevandadırlar.Burada vəziyyət daha ruscadır.Fikirləşdim ki,bu gecə bir təhər daldalanım...Sabah nə yollasa özüm də aradan çıxaram...

Süfrəyə yemək gəldi.Sadiq şam etmiş olsa da qonaqğın xatirinə özü də bir-iki tikə kəsdi...Qalan kotletləri Karen içəri ötürdü.Əlini-ağzını salfetlə silib:-"Sadiqcan,bərk acmışdım.Gözlərim indi işığa gəldi,Allah canınızi sağ eləsin!"-dedi.

...Karen ala-toran çağı yuxudan oyandı.Sadiq də onunla birgə paltarını əyninə taxdı:

-Karen,xanımı oyadım,yenə bir şey hazırlasın,evdən ac çıxma...

Karen çantasından kiçik bir bağlama çıxarıb stolun üstə qoydu:

-Yox,yox,Sadiqcan,tələsirəm.Əlimə başqa bir şey keçmədi.Bu da kukladır,bir ay qabaq Yerevandan alıb gətirmişəm.Açarı da var...Açarı burursan, həm oynayır,həm də ingiliscə oxuyur. Fikirləşdim ki,əliboş gəlməyim...Sənin o bicə qız balan Çiçək üçün hədiyyə gətirdim. Axşam yadımdan çıxmışdı.Karen əmisindən hədiyyədir,verin oynatsın,oxutsun!..

Karen hütələngi şəkildə xudahafizləşib gəldiyi qadın qiyafəsində də mənzildən çıxdı...

Atası səhər yuxudan oyanan Çiçəyi sevindirmək istədi:

-Əziz balam,sənə qəşəng kukla gətiriblər.Gəl yeməyini ye,verim oynat.

Çiçək sevincək yataqdan qalxıb atasının qucağına sarı qaçdı.Ancaq Sadiq bildirdi ki,gəl səhər yeməyini ye,sonra verim.

Elə iştahası olmasa da,qız cəld yeməyini yedi və kuklanı atasından istədi. Sadiq bağlamanı açıb, kuklanı Çiçəyə göstərdi:

-Qızım,bax,kuklanın açarı da var,onu bur, qoy kukla oynayıb-oxusun.

Çiçək kuklanın açarını burdu.Kukla oynaya-oynaya,təkrar-təkrar ingiliscə :"Biz ermənilərindir,gül-çiçəkli Qarabağ!"- deyə oxumağa başladı...Sadiqin gözləri nifrətdən elə gərildi ki, az qaldı hədəqəsindən çıxa. Bircə kəlmə: "ax,əclaflar,nankorlar!" - deyib kuklanı qızının əlindən aldı və hikkəylə döşəməyə çırpdı...Atasının bu hərəkətindən Çiçəyin gözlərindən yaş süzülməyə başladı:

-Ata,niyə sındırdın mənim kuklamı!?

Sadiq qızını köksünə sıxıb üzündəki nifrət hissini ondan gizlətmək istədi:

- Qızım,o kuklanı sənə gətirməyibmişlər.Səhv düşüb...Dur gedək,sənə o kukladan yaxşısını alacağam!..

Ata və qızı əl-ələ tutub mənzildən çıxdılar...

**Ələsgər ƏLİOĞLU**